# Biznes əməliyyatları hesabatı



2023-cü ilin yekunları

# Əsas göstəricilər (2023-cü ilin sonu)

| | |
|---|---|
| **Hasilat** | |
| **AÇG** | |
| neft (min barel/gün) | 363 |
| neft (milyon ton) | 18 |
| **Şahdəniz** | |
| qaz (milyard kubmetr) | 26 |
| kondensat (milyon ton) | 4 |
| **Əməliyyat məsrəfləri (milyon dollar)** | |
| AÇG | 504 |
| BTC | 120 |
| Şahdəniz | 2194 |
| CQBK | 77,7 |
| **Əsaslı məsrəflər (milyon dollar)** | |
| AÇG | 1518 |
| BTC | 46 |
| Şahdəniz | 892 |
| CQBK | 13,8 |

# 2023-cü ilin mühüm hadisələri –AÇG əməliyyatları



~4,3 milyard

barel neft ilk hasilatdan bəri əldə olunub

1 milyardıncı

barel neft Qərbi Azəri platformasından hasil edilib



8 neft hasilatı

6 su injektoru

1 qaz injektoru

quyusu 2023-cü ildə tamamlanıb

# 2023-cü ilin mühüm hadisələri - Azəri Mərkəzi Şərqi (ACE) layihəsi



Layihə üzrə işlər ümumilikdə

**97%** tamamlanıb

- Dayaq bloku dənizə yola salınaraq öz daimi yerinə quraşdırılıb.
- Üst modullar dənizə yola salınaraq öz daimi yerinə quraşdırılıb.
- ACE platforması əməliyyatlara təhvil verilib.
- İnteqrasiya olunmuş təhvilalma testi heç bir ciddi məsələ aşkarlanmadan başa çatdırılıb.
- Dörd quyu konduktoru tam dərinliyədək uğurla qazılıb.
- Dekabrın 4-də ACE-dən ilk hasilat quyusunun qazılmasına başlanıb.

# 2023-cü ilin mühüm hadisələri – Şahdəniz əməliyyatları



**209 milyard**

kubmetr qaz ilk hasilatdan bəri əldə olunub

**45 milyon**

ton kondensat ilk hasilatdan bəri əldə olunub



- **Şahdəniz 2** çərçivəsində aparılan işlər şərq-şimal cinahından 2024-cü ilin əvvəllərinə planlaşdırılan hasilatın başlanması qrafikinə uyğun irəliləyib.

# 2023-cü ilin mühüm hadisələri – Səngəçal terminalı



## 230 milyon

barel neft və kondensat 2023-cü ildə Səngəçal terminalından ixrac edilib

## 26 milyard

kubmetr Şahdəniz qazı 2023-cü ildə Səngəçal terminalından ixrac edilib

Gündəlik ixrac gücü:

**1,2** milyon barel neft və kondensat

**100** milyon kubmetr qaz

# Geoloji kəşfiyyat üzrə mühüm hadisələr



- **Azəri-Çıraq-Günəşli strukturunda** hazırda istismarda olan neft yatağının altındakı dərin qaz layları haqqında məlumat toplamaq məqsədilə yeni bir **qiymətləndirmə quyusu** qazılıb. Hazırda dərin qaz laylarının potensialını öyrənmək üçün quyudan əldə olunmuş məlumatların təhlili aparılır.

- **Şahdəniz müqavilə sahəsində** hazırda istismarda olan məhsuldar layların altındakı daha dərin horizontları qiymətləndirmək məqsədilə yeni bir **kəşfiyyat quyusu qazılıb.** Hazırda quyudan əldə olunmuş məlumatların təhlili aparılır.



- **Şəfəq-Asiman** dəniz blokunda qazılmış ilk kəşfiyyat quyusundan əldə edilmiş məlumatların təhlili nəticələrinin interpretasiyası başa çatıb. Karbohidrogen ehtiyatlarının dəyərləndirilməsi və növbəti fəaliyyətlərin planlaşdırılması işləri hazırda davam edir.

# 2023-cü ildə bp-nin işçiləri



2353

Azərbaycan vətəndaşı
2023-cü ilin sonunda bp-də işləyib



Azərbaycanda ixtisaslı işçilərin

90%-i

yerli kadrlardır

# 2023-cü ildə yerli ehtiyatlardan istifadə

| Yerli podratçılar/təchizatçılar (Azərbaycan, Gürcüstan, Türkiyə regionu) | Sayı | Xərclənib (milyon dollar) |
|---|---|---|
| • Kiçik və orta müəssisələr | 245 | 398,5 |
| • Dövlət şirkətləri | 27 | 45,3 |
| • Yerli tərəfdaşı olan birgə müəssisələr | 14 | 712,7 |
| • Xarici podratçıların ölkə daxilində məsrəfləri | 96 | 389,9 |
| **Ölkə daxilində cəmi xərclər[1]** | **382** | **1546,4** |

**Ümumi üçüncü tərəf xərclərinin 59%-i**

1. Bu məbləğ bp-nin yerli şirkətlərlə birbaşa xərclərini və regionda fəaliyyət göstərən xarici şirkətlərlə müqavilələr üzrə yerli işçi qüvvəsinə / xidmətlərə / materiallara çəkilmiş bilavasitə (subpodratçı) xərcləri göstərir.



# 2023-cü ildə sosial təşəbbüslər

**Azərbaycanda sosial təşəbbüslər**
(ödənilmiş, milyon dollar)

| | |
|---|---|
| bp və bp-nin əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları | 2,0 |
| bp 100% | 0,9 |
| **Cəmi** | 2,9 |



Yerli universitetlərin elmi-təqdiqat və tədris imkanlarının artırılması




Azərbaycanın zəngin mədəni irsinin təbliği




Yeni kitabların nəşri və ən yaxşı beynəlxalq dərsliklərin Azərbaycana gətirilməsi